**Aygül QURBANOVA**
*Xəzər Universiteti*
*filologiya üzrə fəlsəfə doktoru*
*aygul.qurbanova.89@gmail.com*
*Orchid id: 0000-0002-3823-3673*
*https://doi.org/10.59849/2309-7922.2025.2.150*

# LƏMAN VAQİFQIZININ "DAMBUR İFAÇILIĞI VƏ HAYLA YARADICILIĞI" ADLI ARAŞDIRMASI HAQQINDA

**Xülasə**

Türklərin qədim dövrlərdə istifadə etdikləri muqisi alətlərindən biri də dambur olmuşdur. Zaman keçdikcə bir çox musiqi aləti kimi dambur da unudulmağa məhkum olmuş, bu sənəti araşdıran bir çox tədqiqatçılar sistemli bir tədqiqat əsəri ortaya qoya bilmədiklərindən onun mahiyyəti haqqında dolğun məlumat əldə etmək mümkün olmamışdır. Bu baxımdan Ləman Vaqifqızının (Süleymanova) "Dambur ifaçılığı və hayla yaradıcılığı" adlı araşdırması həmin istiqamətdə görülmüş mühüm işlərdən sayılmalıdır. Çünki məhz bu araşdırmada Azərbaycanda dambur sənəti və hayla ifaçılığının əsas xüsusiyyətləri bütün təfərrüatları ilə işıqlandırılmış, birbaşa söyləyicilərdən toplanılmış materiallar əsasında olduqca maraqlı faktlar oxuculara təqdim olunmuşdur.

Kitabda ümumilikdə 98 nəfər dambur ifaçısı, 30 nəfər haylaçı və 20 nəfər meyçinin həyat və yaradıcılığı, 43 dambur havası haqqında məlumat verilmiş, araşdırıcı dambur musiqi alətinin hazırlanması, damburun auditoriyası, dambur deyişmələri və s. haqqında təsəvvür yaratmağa çalışmışdır.

Adıçəkilən tədqiqat əsəri dambur sənəti və yaradıcılığı haqqında öz elmi çəkisi ilə seçilən məlumatların gələcək nəsillərə ötürülməsi üçün zəngin mənbə rolunu oynayır.

**Açar sözlər:** dambur sənəti, hayla ifaçılığı, musiqi aləti, araşdırma, söyləyici, tədqiqatçı

**Aygul GURBANOVA**

# ABOUT LAMAN VAGİFGİZİ'S RESEARCH CALLED "TAMBUR PERFORMANCE AND CREATION OF HAYLAS"

**Summary**

One of the musical instruments used by the turks in ancient times was the tambur. Over time, tambur, like many musical instruments, were doomed to be forgotten, and since many researchers studying this art could not produce a systematic research work, it was not possible to obtain complete information

about its essence. From this point of view, Leman Vagifgizi's (Suleymanova) study entitled “Tambur performance and creation of haylas” shoul be considered one of the important works done in this direction. Because in this study, the main features of the art of tambur and hayla performance in Azerbaijan were covered in detail, and very interesting facts were presented to the readers based on the materials collected directly from the speakers.

The book contains information about the life and work of 98 tambur singers, 30 hayla singer and 20 mey singer, 43 tambur song, research on making of tambur musical instruments, the researcher tried to create an idea about the audience of tambur, tambur talks and etc.

**Key words:** the art of dambur, hayla performance, musical instrument, investigation, narrator, researcher

***Айгюль ГУРБАНОВА***

## ОБ ИССЛЕДОВАНИИ ЛЯМАНА ВАГИФКЫЗЫ ПОД НАЗВАНИЕМ «ИСПОЛНЕНИЕ НА ДАМБУРЕ И ТВОРЧЕСТВО ХАЙЛА»

### Резюме

Дамбур являлся одним из музыкальных инструментом, которые с древних времен пользовались тюрки. Со временем дамбур, как и многие музыкальные инструменты, был забыт, и про дамбурное творчество многие исследователи не смогли предоставить системное исследование произведение о них, также не было никаких материалов о сущности дамбурной музыки. С этой точки зрения исследование Лямана Вагифкызы (Сулейманова) под названием «Исполнение на дамбуре и творчество хайла» следует считать одной из важных работ, проделанных в этом направлении. Потому что именно в этом исследовании основные особенности дамбурового искусства и игры хайла в Азербайджане были освещены во всех деталях, а на основе материалов, собранных непосредственно из уст информаторов и читателям были представлены интересные факты.

В общей сложности в книге представлены сведения об 98 дамбурных исполнителях, об 30 хайлачы, и о 20-ти мейчи, также рассказывается об их жизни и творчестве, и отмечается о 43 дамбурной музыки. Исследователь рассказал об изготовлении музыкального инструмента дамбур, о дамбурной аудитеории, поочередное пение исполнителей на дамбуре и т.д пытались создать представление о них. Упомянутая исследовательская работа служит богатым источником для передачи будущим поколениям информации об искусстве и творчестве дамбура, отличающейся своей научной весомостью.

**Ключевые слова:** дамбуровое творчество, исполнение хайла, музыкальный инструмент, исследование, информатор.

Qədim türk mədəniyyətinin əsas atributları arasında musiqi alətlərinin xüsusi yeri vardır. Türklərin yaşadığı coğrafi ərazilərdə geniş yayılmış musiqi alətləri ümumtürk mədəniyyətinə, bu mədəniyyətin inkişafına xidmət etmişdir. Əcdadlarımız öz hiss və həyəcanlarını, emosiyalarını tarixin müxtəlif dövrlərində istifadə etdikləri çalğı alətləri vasitəsilə daha təsirli şəkildə ifadə etməyə çalışmış, öz sevincini, kədərini, etirazını musiqi vasitəsilə dilləndirmişlər.

*"Ümumbəşəri mədəniyyətin universal dili olan musiqi erkən ünsiyyət vasitəsi olaraq proto dil kimi dərk edilirdi"* (Bayramlı 2014: 98).

Qədim dövrlərdə insanlar müxtəlif çalğı alətləri düzəldərək musiqiyə olan mənəvi tələbatlarını ödəməyə çalışmışlar, zaman keçdikcə bu alətlərin bir qismi təkmilləşdirilirək müasir dövrə qədər gəlib çatmış, bir qismi isə unudulmağa məhkum olmuşdur.

Ümumtürk musiqi mədəniyyətinin ayrılmaz hissəsi olan Azərbaycan musiqisinin keçdiyi təkamül prosesində də müxtəlif çalğı alətlərinin özünəməxsus yeri vardır. "*Tarixi mənbələrdə və eləcə də miniatür sənət əsərlərində orta əsrlərdə Azərbaycanda istifadə edilmiş onlarca musiqi alətinin (rud, rübab, Şirvan tənburu, səntur çoğur, çəqanə, ağ ney, nüzhə, muğni və s.) adları çəkilir və təsvirləri verilir"* (Kərim 2009: 30).

Bu musiqi alətləri arasında damburun adını xüsusilə qeyd etmək lazımdır. Damburun bir musiqi aləti kimi keçdiyi tarixi inkişaf yolunu, mədəni-ictimai mahiyyətini anlamaq üçün Ləman Vaqifqızının (Süleymanova) "Dambur ifaçılığı və hayla yaradıcılığı" adlı kitabı olduqca mühüm tədqiqatlardandır. Müəllifin bu araşdırması ilk növbədə onu deməyə əsas verir ki, dambur sənətinin və onun ayrılmaz hissəsi olan haylaların, manilərin, hayləçıların, dambur havalarının öyrənilməsi Azərbaycan folklorşünaslığının ən vacib tələblərindən biridir.

*Bütün insanlıq musiqi yaradarkən iki təməl faktdan-səs (səsin incəliyi və qalınlığı) və ritmdən (səsin uzunluq və qısalığı) istifadə edir* (Dağıstan 2013: 81).

Təbiətlə harmoniyaya can atan insan bu istəyini həyata keçirmək üçün öz duyğularını düzəltdiyi çalğı alətləri vasitəsilə ifadə etməyə başlamışdır. Bu baxımdan deyə bilərik ki, musiqi alətləri həm də ortaq insani hiss və həyəcanların izhar olunmasında mühüm əhəmiyyət kəsb etmiş, əcdadların musiqi mədəniyyətinin gələcək nəsillərə ötürülməsində vacib rol oynamışdır. Məsələyə bu mövqedən yanaşdıqda dambur ifaçılığının öyrənilməsinin əhəmiyyəti də anlaşılır. Problemi araşdıran L.Vaqifqızının da qeyd etdiyi kimi, *türk xalqlarının yaşadığı bütün coğrafi ərazilərdə mövcud olan dambur dombra, dombrak, dambura kimi müxtəlif fonetik dəyişmələrə uğrayaraq qazax, qırğız, özbək, türkmən, noqay, qumuq və s. türk xalqları arasında bu gün də yaşamaqdadır. Bu alətin adına ayrı-ayrı etnoqrafik ansamblların tərkibinə daxil edildiyini nəzərə almasaq, dambur indi yalnız Zaqatala və Balakən rayonlarında fərdi ifaçılıq səviyyəsində qalmışdır* (Vaqifqızı (Süleymanova) 2020: 4).

Azərbaycan musiqi mədəniyyətinin dərin qatları haqqında informasiya daşıyıcılarından olan dambur ifaçılığının keçdiyi inkişaf yolunu araşdırmaq heç də

asan məsələ deyildir. Məlumdur ki, zaman keçdikcə mədəni irsimizin, musiqi xəzinəmizin əsasını təşkil edən bir çox musiqi alətləri müxtəlif səbəblərdən unudulmağa məhkum olmuş, dövrümüzə qədər gəlib çatmamışdır. Öz araşdırmasında bu problemə toxunan L.Vaqifqızı haqlı olaraq belə bir təhlükənin bölgədə hələ də öz mövcudluğunu qoruyub saxlamış dambur sənətini də təhdid etdiyini vurğulamışdır. Yaşlı söyləyicilərin verdikləri məlumatlarla şəxsi müşahidələrini müqayisə edən tədqiqatçı bu sənətin daha dərindən araşdırılması üçün ayrı-ayrı dambur ifaçılarının yaradıcılığının öyrənilməsini əsas şərtlərdən biri hesab edir və elə bu məqsədlə də onların yaradıcılıqlarına kitabda müstəqil fəsil həsr edir.

L.Vaqifqızının bu araşdırmasının bir çox aktual tərəfləri vardır. Bunlardan birincisi onunla müəyyənləşir ki, dambur ifaçılığı ilə bağlı indiyə qədər problemin məğzini ifadə edən sistemli bir tədqiqat işi aparılmamışdır. Aparılan araşdırmalarda problemə ümumi münasibət bildirilmişdir. Bu isə təbii ki, qoyulan məsələni həlli etmək və probemin mahiyyətini anlamaq üçün kifayət etmir. Məhz bu baxımdan deyə bilərik ki, L.Vaqifqızının "Dambur ifaçılığı və hayla yaradıcılığı" çox böyük zəhmət hesabına başa gəlmiş, mövcuq problemin bütün tərəfləri ilə işıqlandırıldığı sistemli bir tədqiqat əsəridir. Adıçəkilən araşdırmanın aktuallığını müəyyənləşdirən cəhətlərdən biri də onunla bağlıdır ki, tədqiqatçı kitabın hazırlanmasında ancaq söyləyicilərin danışdığı materiallara əsaslanmışdır. Məşhur dambur ifaçılarının əksəriyyətinin həyatda olmadığını nəzərə alsaq, bu materialların dambur sənətinin itib-batmasının qarşısını almaq üçün necə böyük əhəmiyyət daşıdığı aydın olar. Onu da qeyd edək ki, araşdırıcı ayrı-ayrı sənətkarların yaradıcılığını öyrənmək üçün söyləyicilərlə dəfələrlə görüşmüş, onların yaşadıqları bölgəni də dərindən araşdırmışdır. Çünki müəllifin də haqlı qənaətinə görə, hər söhbət zamanı damburçunun yaradıcılığının yeni cəhətləri üzə çıxır. Tədqiqatçı söyləyicilərin məclis aparmaq qabiliyyətini və deyişmə bacarığını müşahidə etmək üçün onların apardıqları məclislərdə də iştirak etmişdir ki, bu da ona araşdırdığı problemlə bağlı mənzərəni əyani şəkildə görməyə və dolğun məlumatlar əldə etməyə imkan vermişdir.

Dambur sənətinin keçmişini və bu gününü bacardığı qədər dolğun şəkildə təsvir etməyə çalışan araşdırıcı dünyasını dəyişən damburçuların yaradıcılıqlarını tədqiq etmək kimi çətin bir öhdəliyi də öz üzərinə götürmüş, onları tanıyan, vaxtilə apardıqları məclislərin iştirakçıları olmuş yaşlı insanlarla söhbətləşmək fürsətini də əldən verməmişdir. Qeyd edək ki, uzun zaman və hövsələ tələb edən bu iş dünyasını dəyişmiş dambur ifaçıları haqqında mümkün olduqca çox məlumat toplamağın yeganə yoludur. Onların məclisdə özlərini necə aparmaları, deyişmələrdəki bacarıqları, hansı havaları ifa etmələri, özlərinin yaratdıqları havaların olub-olmaması məsələsini, yaddaşlarda qalan haylalarını, hətta zahiri görünüşlərinə qədər hər şeyi öyrənməyə çalışan tədiqaqatçı haqlı olaraq belə bir qənaətə gəlmişdir ki, ifaçının özü ilə görüşmədən onun haqqında dolğun məlumat əldə etmək mümkün deyil. Bütün bu çətinliklərə baxmayaraq, L.Vaqifqızının bu sahədə çəkdiyi zəhmət olduqca təqdirəlayiqdir.

Kitabda ümumilikdə 98 nəfər dambur ifaçısı, 30 nəfər haylaçı və 20 nəfər meyçinin həyat və yaradıcılığı, 43 dambur havası haqqında məlumat verilmiş, araşdırıcı dambur musiqi alətinin hazırlanması, damburun auditoriyası, dambur deyişmələri və s. haqqında təsəvvür yaratmağa çalışmışdır.

L.Vaqifqızının hayla sənəti və dambur ifaçıları ilə tanışlığı 2005-ci ildən başlamışdır. Həmin ilin avqust ayında Balakən rayonunun Tülü kəndində Dabax Nizami ilə görüşərək ondan xeyli material toplayan tədqiqatçı haylanın məhz canlı ifada, şəraitə, əhval-ruhiyyəyə uyğunlaşdırılaraq yaradıldığını da ilk dəfə həmin vaxt müşahidə etmiş, damburçuların deyişməsini izləmək fürsətini əldə etmişdir. Damburçuların deyişməsini canlı ifada hayla yaratmaq baxımından, bir növ, meyxanaçıların deyişməsinə bənzədən araşdırıcı meyxanadan fərqli olaraq, haylada vulqar söz və ifadələrin işlədilməsi halları ilə və damburçuların aqressiyya nümayişi ilə qarşılaşmadığını yazır.

Bu işin aktual tərəflərindən biri də dambur havalarının, o havaların üstündə oxunan haylaların, manilərin qeydə alınması və nota köçürülməsidir. Bu da dambur sənətinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi üçün çox böyük əhəmiyyət daşıyır. Tədqiqatçı bu işin öhdəsindən gəlmək üçün musiqişünaslara müraciət etmiş, dambur havalarının on ikisinin nota köçürülməsinə və bunların da kitaba daxil edilməsinə nail olmuşdur.

Araşdırıcı həmçinin dambur ifaçıları ilə dəfələrlə görüşmüş, onlardan bu musiqi aləti, onun düzəldilməsi, bölgədə vaxtilə məşhur olmuş dambur ifaçıları və onlarla bağlı xatirələr qeydə almış, dambur və mey, dambur və nağara, eləcə də dambur və saz əlaqələri, manilər və s. haqqında tədqiqatlar da aparmışdır ki, bu da görülən işin mahiyyətindən və tədqiqatçının öz işini çox böyük məsuliyyət hissi ilə yerinə yetirməsindən xəbər verir.

Dörd fəsildən ibarət olan kitabın birinci fəslində dambur haqqında, həmçinin bu musiqi alətini hazırlayan ustalar, damburun hazırlanma texnikası və auditoriyası, hayla ifaçılığı və haylaçılar haqqında ümumi məlumat verilmişdir. Tədqiqatçı kitabın bu hissəsində dambur ifaçılığı ilə bağlı özünəqədərki tədqiqatlarçıların adlarını vurğulamağı unutmamış, aparılan tədiqatların bir qisminin yalnız folklor baxımından, bir qisminin isə musiqişünaslıq baxımından aparıldığını qeyd etmişdir. Lakin yuxarıda da qeyd olunduğu kimi həmin tədqiqatlar sistemli xarakter daşımadığından dambur sənətinin mahiyyətini tam şəkildə əks etdirə bilməmişdir.

L.Vaqifqızı bölgədə toplama işi apararkən müəyyən etmişdir ki, müəyyən dambur ifaçıları çaldıqları alətləri özləri düzəltsələr də, əksəriyyəti dambur ustalarına hazırladarmışlar. Araşdırıcı qeyd edir ki, vaxtilə bölgədə dambur ifaçılığı geniş yayıldığı üçün bu aləti hazırlayan usta sayı da çox imiş. Zaman keçdikcə damburun hazırlanmasında müəyyən dəyişikliklər baş vermiş, bu aləti hazırlayan ustaların sayı kəskin surətdə azalmışdır. Tədqiqatçı öz kitabında haqqında məlumat topladığı mahir dambur ustalarından Sayılov Şəmsəddin Məhəmməd oğlunun, Sayılov Mahir Şəmsəddin oğlunun, Muradov Abduləli Rahmat oğlunun, İsayev Hacımuradın, Aydın Abdulməcidin, Hatıyev Ömərin, Həsrət kişinin adlarını çəkir.

L.Vaqifqızının bu araşdırmasında damburun hazırlanma texnikası haqqında da olduqca mühüm məlumatlar əldə edirik. Bu da tədqiqatçının öz işini bütün incə detallarına qədər araşdırdığını göstərir. Kitabda qeyd olunur ki, bütün damburçuların və ustaların sonda gəldikləri yekdil fikir tut ağacından hazırlanan damburların daha yaxşı olmasıdır.

Araşdırıcı söyləyicilərdən dambur musiqi alətinin quruluşunu ən xırda detallarına qədər dəqiqləşdirmişdir. *"Söyləyicilərin verdikləri məlumatlara görə, əvvəllər dambur musiqi alətində iki sim varmış. Son zamanlar isə dambura bəzən üçüncü sim də artırılır. Üçüncü simin artırılmasına dambur ifaçıları iki səbəb göstərdilər. Birinci səbəb budur ki, üçüncü sim oyun havaları çalan zaman səsin daha gur çıxmasını təmin edir. İkincisi isə, uzun keçən məclislər zamanı damburun simlərindən biri qırılıb damburçunu pis vəziyyətdə qoymasının qarşısını almaqdır. Amma dambur ifaçılarının çoxu hələ də beş pərdəli iki simli dambur çalmağa üstünlük verirlər"* (Vaqifqızı (Süleymanova) 2020: 18).

Tədqiqatçı həmçinin damburun hansı məclislərdə ifa olunması, dambur havalarının və havaların üstündə oxunan haylaların funksiyası məsələsinin öyrənilməsini də vacib hesab etdiyi üçün bu barədə söyləyicilərdən öyrəndiyi mühüm məlumatları da kitabında qeyd etmişdir. Araşdırıcı söyləyicilərin dediklərinə əsasən müəyyən etmişdir ki, dambur vaxtilə əsasən iməciliklərdə, sünnət toylarında, əsgər yola salma və qarşılama mərasimlərində, toyun səhəri günü keçirilən məclislərdə, el şənliklərində, məhsul bayramlarında, ad günlərində, adi yeyib-içmək məclislərində, Rusiya və digər ölkələrə mövsümi işlərə gedib evinə dönənlərin təşkil etdikləri məclislərdə, müasir dövrdə kafelərdə, restoranlarda və s. ifa olunurdu.

Araşdırmasında hayla ifaçılığı və haylaçılar haqqında ətraflı məlumat verən tədqiqatçı "haylamaq", "haraylamaq", "səsləmək", "çağırmaq" anlamını özündə ehtiva edən hayla sənətinin icraçılarının çox zəngin repertuarları olduğunu, haylaçıların hamısının bədahətən hayla deməyi bacardığını, lakin auditoriyanın tələbinə və kontekstə uyğun deyilən bu haylaların əksəriyyətinin zamanında qeydə alınmadığı üçün yaddan çıxdığını qeyd edir. Araşdırıcı kitabında bölgənin məşhur haylaçılarından Kiriskom Əli, Dabaxova Zalxa, Hüseynova Üneyzət, Yetərova Səkinə, Xəlilov Cahangir, Qardaşova Səkinə, Sarmanov Ziyavəddin, Şindiyev Zahid, Murtuzov Sirac, Abdullayeva Hürü, Abdullayev İsmixan, Xəlilov Ramazan və b. haqqında söyləyicilərdən topladığı məlumatları da vermişdir. Bu məlumatar haylaçıların hayla söyləmə tərzi haqqında təsəvvür yaratmaq baxımından olduqca təqdirəlayiqdir.

Qeyd edək ki, araşdırıcı vaxtilə məclislərdə damburla birgə ifa olunan mey aləti, mey sənətini, bölgənin məşhur meyçiləri haqqında söyləyicilərdən topladığı məlumatları da kitabında əks etdirmişdir.

Tədqiqatçı bölgənin yas mərasimləri ilə bağlı söyləyicilərdən topladığı materialları da oxucuların diqqətinə çatdırmışdır. Kitabda L.Vaqifqızının söyləyicilərdən eşitdiyi bayatı formasında olan üç ağı verilmişdir.

Dambur havaları və deyişmələrini də dərindən araşdıran tədqiqatçı damburçuluğun əvvəllər bütün Azərbaycanda mövcud olduğunu, müasir dövrdə isə öz varlığını yalnız Zaqatala-Balakən bölgəsində qoruyub saxladığını yazır. Araşdırıcı bölgədə bu gün də məşhur olan dambur havalarından "Çay daşı, çaylaq daşı", "Ay aman-aman", "Hacı Murad", "Qərib hava", "Köhnə hava", "Yerli hava", "Pəhləvan havası", "Uzun Aslanın havası", "Ay gülüm, bülbülüm", "Can, aman", "Qoqoqo", "Balası", "Cütcü", "Araba kəl boynunda" və ya "Kal arabanın boynunda", "Zoğala gedən", "Gəlin gətirən", "Sıçrama", "Tərəkəmə", "Aqquş", "Nargilə" və başqalarının adını çəkir və bunların oxşar və fərqli xüsusiyyətlərini də qeyd edir. *"Oyun havaları adətən rəqs zamanı ifa olunur, daha çox məclisin sonuna yaxın çalınır. Bu havaların özünü də iki yerə ayırmaq olar; qadın və kişilərin birgə oynadıqları havalar və yalnız kişilərin oynadıqları havalar. Məsələn, "Yerli hava" qadın və kişilərin birgə iştirakı ilə oynanılır. Sürətli oyun tələb edən havalarda qadınlar meydanları tərk edər, yalnız kişilər oynayarlar. Bölgədə vaxtilə çox məşhur olmuş "Zoğala gedən" adlı havanı söyləyicilərin dediklərinə görə, ancaq kişilər oynayarmışlar"* (Vaqifqızı (Süleymanova) 2020: 60).

Tədqiqatçı həmçinin damburçalanların ifasında "Sarı gəlin", "Azərbaycan maralı", "Qaragilə" kimi xalq mahnılarını, Molla Cumanın "Ya bir olar, ya iki" mahnısını, "Cücələrim" uşaq mahnısını, türkiyəli müğənnilərin ifa etdikləri "Bul, gətir" adlı bəstəni də damburçuların ifasında dinləyə bilmişdir (Vaqifqızı (Süleymanova) 2020: 68).

Araşdırıcı dambur ifaçılarından danışmaqla, həm də bölgənin dambur sənətini işıqlandırmağa çalışmış, bu məqsədlə hətta vəfat edən dambur ifaçılarının həmkarları, ailə üzvləri, qohumları, eləcə də apardıqları məclislərdə şəxsən iştirak edən insanlarla görüşərək onlarla bağlı xatirələri toplamış, görüşdüyü insanlara vəfat etmiş dambur ifaçıları haqqında suallar verərək, onların zahiri görkəmi, xarakterləri, şəxsi həyatları, oxuduqları mahnılar, ifa etdikləri havalar, ifa texnikaları və s. barədə məlumatlar, həmçinin onların bir hissəsinin fotoşəkillərini, doğum və ölüm tarixlərini, bəzilərinin 1990-cı illərdə məclis apararkən ailə üzvləri tərəfindən lentə alınmış video-kasetlərini, həmçinin həvəskarlar tərəfindən qeydə alınmış bir neçə səs yazısını da əldə etmişdir ki, bütün bunlar müasir dövr üçün olduqca qiymətli məlumatlardır. O hətta doğum və ölüm tarixlərini dəqiqləşdirə bilmədikləri damburçuların dəfn olunduqları qəbirstanlıqları belə gəzməkdən çəkinməmişdir.

Kitabda dambur deyişmələrinə aid olduqca maraqlı faktlar verən tədqiqatçı söyləyicilərdən topladığı məlumatlara əsasən deyişmənin qaydalarını aşağıdakı kimi qruplaşdırmışdır:

*1. "Deyişməni ilk başlayan dambur ifaçısı hansı havanın üstündə çalıb-oxusa, tərəf müqabili də məhz həmin havanın üstündə cavab qaytarmalıdır.*

*2. Damburçular bədahətən oxuyurlar, amma meyxanaçılardan fərqli olaraq, deyişmə zamanı vulqar ifadələr işlətmir, etik qaydaları pozmurlar.*

*3. Bir-birini məğlub edə bilməyən ifaçılar sonda sual-cavab hissəsinə keçirlər. Bu zaman tapmaca-bayatıya cavab verə bilməyən ifaçı məğub sayılır.*

*Aşıqlardan fərqli olaraq, dambur deyişmələrində məğlub tərəfin musiqi aləti əlindən alınmır. Sadəcə, məclis ifaçıları kimin güclü, kimin zəif olduğunu görürlər"* (Vaqifqızı (Süleymanova) 2020: 74-75)

Araşdırıcının dambur deyişmələri ilə bağlı verdiyi məlumatlar həm də aşıq yaradıcılığının tədqiqatçıları üçün olduqca faydalıdır.

Kitabda həmçinin dambur və saz əlaqələrindən bəhs edən tədqiqatçı bölgədə damburla yanaşı saz ifaçılarının da olduğunu, amma konkret olaraq Zaqatala-Balakən bölgəsində yaşayan heç bir aşığın sazla yanaşı, damburda ifa etməsi faktı ilə qarşılaşmadıqlarını qeyd edir. Bölgəyə səfərləri zamanı Molla Cumanın məclislər aparması ilə bağlı xatirələr toplayan L.Vaqifqızı söyləyicilərin dediklərinə əsasən aşığın sazla yanaşı, həm də yaxşı dambur ifaçısı olduğunu da yazır. Araşdırıcı yenə söyləyicilərdən topladığı məlumatlara əsasən qeyd edir ki, kənd toylarında damburla yanaşı çağana adlı musiqi alətindən də istifadə olunurdu. *"Çağana kamançaya bənzər, amma ondan boyca bir qədər kiçik, aşağısı isə kamançadan bir qədər enli, simləri az muqisi aləti imiş"* (Vaqifqızı (Süleymanova) 2020: 191).

Tədqiqatçı Zaqatala-Balakən bölgəsində yaşayan azsaylı xalqların da dambur ifaçılığından bəhs etməyi unutmamış, bu bölgədə yaşayan bütün xalqların nümayəndələri arasında da dambur çalanların, hayla oxuyanların olduğunu, lakin Azərbaycan türklərindən fərqli olaraq, azsaylı xalqların dambur ifaçıları arasında deyişməyi bacaran damburçularla rastlaşmadığını, onların yalnız solo ifa etdiyini qeyd etmişdir. Araşdırıcı söyləyicilərlə görüşdükdən sonra belə qənaətə gəlmişdir ki, azsaylı xalqların arasından çıxmış dambur ifaçıları haylaların böyük əksəriyyətini Azərbaycan dilində oxusalar da, ara-sıra öz dillərində söylədikləri haylalar da olmuşdur. Bu mətnlər də söyləyicilərin əksəriyyətinin etiraf etdiyi kimi Azərbaycan dilindəki haylaların öz dillərinə tərcümələrindən ibarətdir.

Damburun yaranması ilə bağlı hər hansı bir mətnin olub-olmadığını araşdıran tədqiqatçı rastlaşdığı söyləyicilərin birindən bununla bağlı iki rəvayət qeydə almışdır.

Bölgənin azsaylı xalqlarının – avarların və saxurların dambur ifaçılığı ilə bağlı söyləyicilərdən kifayət qədər önəmli və maraqlı faktlar toplayan araşdırıcı təkcə bununla da kifayətlənməmiş, bölgəyə səfərləri zamanı ingiloyların yaşadıqları məntəqələrə də baş çəkmiş, vaxtilə onların arasında da az sayda dambur ifaçılarının olduğunu müəyyən etmişdir. Tədqiqatçının bu addımı olduqca təqdirəlayiqdir, çünki o, problemi araşdırarkən Azərbaycanda yaşayan azsaylı xalqların yaradıcılığını da türk mədəniyyətinin daşıyıcısı kimi dəyərləndirmiş və diqqətdən kənarda saxlamamışdır. Bununla araşdırıcı həm də bölgənin etnoqrafik xüsusiyyətlərini tam şəkildə müşahidə etməyə müvəffəq olmuşdur.

Müəllif kitabın sonunda söyləyicilər və qaynaqların siyahısını, nota köçürülmüş dambur havalarını vermişdir. Həmçinin qeyd etmək lazımdır ki, söyləyicilərlə canlı ünsiyyət zamanı çəkilən şəkillərin də kitaba əlavə olunması görülən işin mahiyyəti və çəkilən zəhmətin böyüklüyü haqqında oxucularda əyani təsəvvür yaratmaq baxımından olduqca dəyərlidir.

Qeyd edək ki, tədqiqatçının dambur ifaçılığı və hayla yaradıcılığı ilə bağlı araşdırmaları təkcə bu kitabla məhdudlaşmır, kitabın nəşr olunmasından sonra müəllifin dərc etdirdiyi "Tamburcu Rahmanov Efganın edebi şahsiyeti" (Süleymanova 2019), "Dambur ve saz ilişkileri" (Süleymanova 2021), "Saxur ve ingiloylarda dambur ifaçılığı" (Vaqifqızı (Süleymanova) 2021), "Balakən dambur ifaçılarının yaradıcılığı" (Vaqifqızı (Süleymanova) 2021), "Azerbaycan milli müzik aleti tanburun özellikleri ve işlevi" (Süleymanova 2021) və "Hayla ifaçılığı və haylaçı qadınlar" (Vaqifqızı (Süleymanova) 2023) adlı məqalələri, həmçinin "Dambur deyişmələri" (Vaqifqızı (Süleymanova) 2021) və "Əfqan Zeybəddin oğlu Rəhmanovun haylaları" (Vaqifqızı (Süleymanova) 2022) adlı toplamaları da eyni problemin tədqiqinə həsr olunmuşdur.

Ümumilikdə, onu deyə bilərik ki, L.Vaqifqızınının bu araşdırması Azərbaycanda dambur ifaçılığının və hayla yaradıcılığının sistemli şəkildə araşdırıldığı ilk tədqiqat əsəri kimi olduqca dəyərlidir və gün keçdikcə unudulmağa məhkum olan bu sənətin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi üçün mühüm qaynaq rolunu oynayır. Həmçinin qeyd etmək lazımdır ki, tədqiqatçının gördüyü iş öz sanbalı, elmi çəkisi ilə seçilən tədqiqat əsərlərindəndir. Kitabda damburçuluqla bağlı verilən faktlar, birbaşa söyləyicilərdən toplanılan məlumatlar həm də ona görə dəyərlidir ki, bunlar həmin sənətin tarixini mücərrəd keşmişdən xilas edərək gələcəkdə bu istiqamətdə araşdırmalar aparmaq istəyən folklorşünaslarla yanaşı etnoqraflar, musiqiçilər və digər sahələrin tədqiqatçıları üçün də zəngin informasiya mənbəyi olacaqdır.

## ƏDƏBIYYAT

1. Bayramlı Yeganə. Azərbaycan simli musiqi alətləri milli mədəni ənənənin tərkib hissəsi kimi sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya Bakı 2014, 147 s.

2. Dağıstan Ali "Türk bağlaması oxşar çalğı alətləri sırasında" sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı 2013, 134 s.

3. Kərim Məcnun. Orta əsr Azərbaycan musiqi alətləri (tarixi, orqonoloji tədqiqat) sənətşünaslıq doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, Bakı 2009, 271 s.

4. Süleymanova L. Azerbaycan milli müzik aleti tanburun özellikleri ve işlevi. Türk Dünyası Halkbilimi. Ankara, Bengü yayınevi, 2024, s. 536-561

5. Süleymanova L. Dambur ve saz ilişkileri. Doğan Kaya Armağanı. 70. Yaş Hatırası. Cilt 2. İstanbul: Step Ajans Matbaaçılık 2021, s. 1195-1209

6. Süleymanova L. Tamburcu Rahmanov Efganın edebi şahsiyeti. II Uluslararası Develi Aşık Seyrani ve Türk Kültürü Kongresi. "Aşık Seyrani Bildirileri". 10-11-12 Ekim, 2019, s. 116-126

7. Vaqifqızı (Süleymanova) L. Balakən dambur ifaçılarının yaradıcılığı. "Dədə Qorqud" elmi-ədəbi toplu, 2021, №3, s. 134-144

8. Vaqifqızı (Süleymanova) L. Dambur deyişmələri. Toplama. "Dədə Qorqud" elmi-ədəbi toplu, 2021, №2 (73), s. 157-168

9. Vaqifqızı (Süleymanova) L. "Dambur ifaçılığı və hayla yaradıcılığı". Bakı, "Elm və təhsil", 2020, 264 s.

10. Vaqifqızı (Süleymanova) L. Əfqan Zeybəddin oğlu Rəhmanovun haylaları. "Dədə Qorqud" elmi-ədəbi toplu, 2022, №4, s. 160-171

11. Vaqifqızı (Süleymanova) L. Hayla ifaçılığı və haylaçı qadınlar. "Novruz ənənələri: qadın yaradıcı, qoruyucu və ötürücü kimi" adlı Beynəlxalq Elmi konfransın materialları. 17 mart 2023, s. 225-238

12. Vaqifqızı (Süleymanova) L. Saxur ve ingiloylarda dambur ifaçılığı. "Dədə Qorqud" elmi-ədəbi toplu, 2021, №2 (73), s. 99-107